


# «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli, 521-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli, 521-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli, 521-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli, 521-IIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 199-cu və 247-1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə sığorta, təkrarsığorta və sığorta vasitəçiliyi fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;

2.2. həmin Məcəllənin 253-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, yanğından icbari sığortaya münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, icbari ekoloji sığortaya münasibətdə Azərbaycan

Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, sərnişinlərin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi baxır;

2.3. həmin Məcəllənin 253-cü, 253-2-ci, 254-cü, 255-ci, 255-1-ci, 255-2-ci, 255-3-cü, 257-1-ci və 257-5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 13 mart 2008-ci il***

***№ 736***